**PEDAQOGİKA və METODİKA**

*https://doi.org/10.30546/114578.2025.10.4014*

# BİR QƏLƏMİN MÖCÜZƏSİ

**Həmzə Əliyev**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCİD.org/0000-0003-2344-8388*
*hamza.aliyev@adpu.edu.az*

**Xülasə**

İnsan doğulduğu yerdən, doğma təbiətdən, boya-başa çatdığı ailə mühitindən çox şeyləri özünün varlığına, ruhuna hopdurur. Bu amillər çox zaman onun tale və ömür yolunun, şəxsiyyət və xarakterinin formalaşmasında həlledici rol oynayır.

Bu sətirləri yazarkən istər-istəməz müəyyən müddətdə ünsiyyətdə olduğum, qəlbində və hafizəsində milli-mənəvi sərvətlərimizin əvəzsiz qaynaqlarını, zəngin dil fakt və əlvanlığını böyük ehtiras və şövqlə söz-söz, kəlmə-kəlmə şərh etməyi özünün müqəddəs amalı sayan tanınmış dilçi alim, ədəbiyyatşünas, publisist, şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü, prezident təqaüdçüsü, Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı (Hüseynova) canlanır.

**Açar sözlər:** söz, qələm, Mahirə Hüseynova, elm, şeir, dil.

# THE MIRACLE OF A PEN

**Hamza Aliyev**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

A person absorbs much into their essence and soul from the place where they were born, from the native nature, and the family environment in which they grew up. These factors often play a decisive role in shaping one’s destiny, life path, personality, and character.

While writing these lines, I inevitably recall Mahira Nagigizi (Huseynova) − a renowned linguist, literary scholar, publicist, poet, member of the Azerbaijan Writers' Union, presidential scholarship holder, Honored Teacher, Doctor of Philological Sciences, and professor − with whom I had the opportunity to interact for a certain period. She regarded it as her sacred mission to passionately and enthusiastically interpret, word by word and phrase by phrase, the priceless sources of our national and spiritual heritage, along with the richness and vibrancy of our language, preserved deeply in her heart and memory.

**Key words:** word, pen, Mahira Huseynova, science, poetry, language.

## ЧУДО, РОЖДЁННОЕ ПЕРОМ

**Гамза Алиев**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Человек впитывает в свою сущность и душу многое из места, где он родился, из родной природы и семейной среды, в которой вырос. Эти факторы зачастую играют решающую роль в формировании его судьбы, жизненного пути, личности и характера.

Когда пишешь эти строки, невольно вспоминается Махира Нагикызы (Гусейнова) − известный лингвист, литературовед, публицист, поэт, член Союза писателей Азербайджана, стипендиат Президента, Заслуженный учитель, доктор филологических наук, профессор, − с которой мне посчастливилось общаться в течение определённого времени. Она считала своим священным делом с большим энтузиазмом и страстью толковать, слово за словом, выражение за выражением, бесценные источники наших национальных и духовных ценностей, а также богатство и яркость родного языка, что хранились в её сердце и памяти.

**Ключевые слова**: слово, перо, Махира Гусейнова, наука, стихотворение, язык.

Hər dəfə onunla üz-üzə gələndə, ünsiyyətə girəndə adama elə gəlir ki, simasından nur yağan, təpədən-dırnağa qədər səmimiyyət mücəssiməsi olan Mahirə xanımı lap binayi-qədimdən tanıyırsan. Hər zaman onunla kəlmə

kəsməyə, hal-əhval tutmağa, dərdləşib fikir bölüşməyə mənəvi ehtiyac duyursan... Bu da təbiidir. Axı Mahirə xanım söz ustası, qələm əhlidir.

O da bir həqiqətdir ki, sözə can vermək, insani duyğularını, ruhunu, sənətə çevirmək bacarığı − bu, əsl möcüzədir. Sözün çatdığı mərtəbəyə yüksəlmək, tanrının pıçıltısını sözə-şeirə çevirib könüllərə ərməğan vermək hər kəsə nəsib olmur. Söz adamı olmaq əslində ruh adamı olmaq deməkdir. Yəni sənin yazdıqların çoxlarının ürəyindən keçirtdiyi, lakin sözlə ifadə edə bilmədikləridir. Mahirə Nağı qızı yaradıcılığını vərəqlədikcə sözlə ifadə olunan fikir gözlərimizin önündə rəssam tablosu kimi canlanır, ruhumuza, mənəviyyatımıza axır. Sözə yeni məna və rəng çaları verməklə ona yeni həyat bəxş edən şairin yaradıcılığı səmimi etiraflar, məhəbbət, torpaq həsrəti ilə müşayiət olunur.

Elmi təfəkkürlə bədii təxəyyülün vəhdəti və sözlə düşüncənin harmoniyası oxucularında Mahirə Nağı qızı yaradıcılığı, bu poetik xəzinənin rəngarəng motivləri barədə geniş təsəvvür formalaşdırır.

Torpağa əl uzadanları, vətənə böhtan atanları qələmin diliylə qamçılayan Mahirə xanım ana dilimizin qoruyucusudur. Dilinə görə asılıb-kəsilən, döyülüb-söyülən, yağmalanıb-talanan millətin şairə qızının elmi fəaliyyətində dil məsələsi həmişə önə çəkilir.

Ana dili bizim hamımızın ən böyük nemətimiz, səxavətlə verilmiş Tanrı payımızdır. Görkəmli ziyalı, maarif xadimi Ömər Faiq Nemanzadə bu fikri daha konkret şəkildə belə deyir: "Dil millətin tək nişanıdır". Bu sözlər Mahirə xanımın hansı məsləkə nə qədər sadiqliklə xidmət etdiyini bir daha xatırladır. Görkəmli dilçinin yorulmadan dilimizin təbliği və qardaş türk dövlətlərində təşkil olunan tədbirlərdə təkrar-təkrar iştirakı və maraqlı çıxışları buna parlaq nümunədir. Sevindirici haldır ki, bu günlərdə o, Özbəkistanın Cizzak Dövlət Pedaqoji Universitetinin qonağı olmuş və həmin universitetin fəxri professoru adına layiq görülmüşdür.

Az vaxt ərzində Mahirə xanımın rəngarəng uğurları məşhur fransız yazıçı Gi de Moppasanın bir fikrini yadıma saldı: O deyərmiş "mən ədəbiyyat aləminə bir meteor kimi daxil oldum və ondan ildırımtək çıxacağam". Bəli, Mahirə xanım da filologiyamıza bir "meteor kimi" daxil oldu, indi özünün misilsiz, məzmun və formaca rəngarəng yaradıcılığı ilə onu zənginləşdirməkdədir.

Təəssübkeşlik dolu qayəsi, sonsuz sevgi tutumlu məzmunu ilə dil daşıyıcılarının həyatına günəş saçan: "Hikmət dolu söz büsatı ana dilim, Dədəm-babam amanatı, ana dilim!" – misrası sözün əsil mənasında hər bir

azərbaycanlının daha geniş müstəvidə bir sıra türkdilli xalqların dilinin əzbərinə çevrilib.

Ana dilimizin müasir problemləri barədə dəfələrlə bəhs edən professor Mahirə xanım: "Dilimizə ögeyliyin səbəbini ən əvvəl özümüzdə axtarmalıyıq. Başqa dillərdən dilimizə keçən kəlmələr, doğrudan da, bizə lazımdırmı? Dilimizdə adi bir sözün istənilən qədər qarşılığı var. Hər informasiyanı çatdıracaq, duyğumuzu anladacaq rəvan, xoşagəlimli dilimiz var. Çiy kəlmələr, tüfeyli ifadələr gəncliyimizi yüngülağıllılığa sövq edir" düşüncəsi ilə yaşayan istedadlı dilçi-alim, eyni zamanda, bu millətsevər, vətənpərvər xidmətləri ilə gənc nəslin yetişməsində müstəsna fəaliyyət göstərərək, istənilən problemin həllində bütün varlığı ilə çalışaraq "Dil − müqəddəsdən müqəddəs Tanrı əmanəti" olaraq qəbul edir və onu göz bəbəyi kimi qorumağı məsləhət görür.

Mahirə Nağı qızı şeirlərinə ad seçəndə o qədər incəlik, ustalıq nümayiş etdirir ki, daxilində daim yanan, qaranlığa işıq saçan nurun olduğunu − bu müsbət emosiyaları nominativ leksik vahidlərdə də açıq-aydın hiss etmək mümkündür. Atdığı hər addım ölkə siyasətinin, dövlətçiliyin, dil və ədəbiyyatın güzgüsüdür. Milliliyimizi qorumaq, ədəbiyyatımızı tərənnüm etdirmək, mədəniyyətimizə sahiblənmək, turançılıq ideyaları ilə yaşayıb-yaradan Mahirə xanımın əsl türkçülük ideyasının təzahürü kimi dəyərləndirilməyə layiqdir.

Təbiət vurğunu olan şairin Qərbi Azərbaycan həsrətini aşıqların yaradıcılığındakı gəraylılarda, xanəndələrimizin muğamlarındakı ah-nalədən də duymaq mümkündür. Həyatın hər sınağından üzüağ çıxan Nağı qızı:

*Hər bulaq başında diz də çökmüşəm*
*Odlar ayaqlayıb, közlər keçmişəm,*
*Canımı mən özüm qurban vermişəm*
*Vurğunu* olduğum Azərbaycana!

Şeirdə həm də nikbin bir ruh hakimdir. Çünki yurd sevgisinə bələnmiş duyğuları Qərbi Azərbaycanın Dərələyəz mahalında dolanır, əlinin çatmadığı torpaqlara ününü yetirir. Göylərə ucalan misraları illər həsrətlisinin yurd yerlərində hərlənməkdədir. O torpaqlara qədəm qoyacağı günə şairin inamı böyükdür.

Rəvan nitqli şairin qələmi həyatın bütün təzadlarını, gözəlliklərini tərənnüm etməklə yanaşı, səhhəti ilə bağlı verdiyi sınaqlarda ana duasına, Tanrı rəhminə sığınır. Çünki istedadlı söz sənətkarı yaradanın yaratdıqlarına kömək etməkdən, arxa durmaqdan heç bir zaman usanmır.

Onun öz yolu var. Bənzərsiz fərdi təbiəti, şəxsi xarakteri ilə heç kimlə müqayisəyə gəlmir. Alimliyi, müəllimliyi, ədibliyi ilə həyatın eybəcərliyindən gəncləri uzaq durmağa çağırır. Alim müdrikliyi ilə həyatın yolunu nişan verir.

Mahirə xanımın Nazlı anadan irsən gələn əyilməzliyi, təmizliyi, müqəddəsliyi bütün analara nümunə − analıq təcəssümü olaraq töhfədir. Taxtını elinin könüllərində quran Nazlı ana millətimizi qoruyan, qeyrətimizi çəkən övladlar yetişdirmişdir. Soykökü, şəcərəsi Zəngəzur mahalınınn tarixinə qovuşan Nazlı ananın narahat ruhu vətənə qovuşacağı günün astanasında dolaşır.

Özü ana, nənə olsa da, ana nəfəsinə, nəvazişinə ehtiyacı olan incə ruhlu professor Mahirə xanımın əsərlərində "Ana" mövzusu Tanrı qədər müqəddəslik qazanıb. Həyatını övladlarına həsr edən Nazlı ananın övladları heç bir insan qüvvəsinin qarşısında əyilməsələr də, ana qarşısında əyilməyi özlərinə qürur sayıblar!

Son olaraq Mahirə xanımın ad bayramına təbrikimi aşağıdakı sözlərlə ifadə edirəm: "Hörmətli Mahirə xanım! Gələn hər iliniz ötən hər ildən qat-qat gözəl, uğurlu olsun. Ulu Tanrı ömrünüzə ömür, sevincinizə sevinc qatsın. Sevinc başınızın tacı, kədər ayağınızın tozu olsun. Arzularınız Sizi qanadına alıb ən uca zirvələrə qaldırsın və yenilməz etsin. Sizə su və hava kimi lazım olan can sağlığı arzulayıram. Lirik şeirlərinizdə tərənnüm, epik əsərlərinizdə təsvir etdiyiniz ata-baba yurdunuza tezliklə qovuşmagınızı diləyirəm".

***Məqalə tarixçəsi***
*Daxil olub* *01.10.2025*
*Qəbul edilib* *14.10.2025*
*Nəşrə tövsiyə edib* *Könül Səmədova*
*filologiya elmləri doktoru, professor*